# XİN: "Ermənistan beynəlxalq humanitar hüququ və insan haqlarını kobud şəkildə pozur"

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında davam edən hərbi münaqişə Azərbaycan ərazilərinin təqribən beşdəbirinin işğalı və ölkə əhalisinin hər doqquz nəfərdən birinin məcburi köçkün və ya qaçqın olması ilə nəticələnib. Ermənistan Respublikası Azərbaycana qarşı müharibənin başladılması və gücdən istifadə etməklə onun torpaqlarının işğalı, eləcə də kütləvi etnik təmizləmənin həyata keçirilməsi və münaqişə dövründə digər ağır cinayətlərin törədilməsinə görə məsuliyyət daşıyır.



Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

Bəyanatda deyilir ki, beynəlxalq ictimaiyyət sərt şəkildə Azərbaycana qarşı hərbi gücdən istifadəni və onun torpaqlarının işğalının nəticələrini ardıcıl formada qınayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib, Azərbaycana qarşı gücdən istifadəni və onun ərazilərinin işğalını pisləyib, eyni zamanda, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, o cümlədən beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi təsdiq edib və işğalçı qüvvələrin bütün işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da buna oxşar sənədlər qəbul edib.

Beynəlxalq ictimaiyyətin mövqeyinə tamamilə etinasızlıq və beynəlxalq hüququn kobud şəkildə pozulması şəraitində Ermənistan işğala əsaslanan hazırkı status-kvosunu qoruyub saxlamağa, işğal olunmuş ərazilərdə öz hərbi mövcudluğunu gücləndirməyə, ərazilərin demoqrafiq, mədəni və fiziki xarakterini dəyişməyə, zorla məcburi köçkün edilən yüz minlərlə azərbaycanlının doğma torpaqlarına qayıtmasının və bu ərazilərdəki mülkiyyətinə sahib olmasının qarşısını almağa xidmət edən cəhdlərini davam etdirir.

Bununla yanaşı, davamlı şəkildə atəşkəsin pozulması, azərbaycanlı mülki əhalinin həlak olması və yaralanması ilə nəticələnən Ermənistan və Azərbaycan Silahlı Qüvvələrinin təmas xətti boyunca və hər iki dövlətin sərhədində yerləşən Azərbaycan şəhərləri və kəndlərinə hücumlar son dövrlər daha intensiv və zorakı xarakter alıb.

Azərbaycan Respublikası bu xüsusda öz qəti etirazını və ciddi narahatlığını dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb və dəfələrlə bəyan edib ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğu münaqişə zonasında gərginliyin və insidentlərin yaranmasının əsas səbəbidir və münaqişənin siyasi həllinə başlıca maneədir. Azərbaycan Respublikası onu da dəfələrlə bəyan edib ki, onun ərazilərinin hərbi işğalı həll yolu deyil və heç zaman Ermənistanın arzu etdiyi siyasi nəticələrlə yekunlaşmayacaq.

2016-cı il aprelin 2-də səhər tezdən Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdəki mövqelərdən qoşunların təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və təmas xəttinə yaxın ərazilərdə Azərbaycanın nəzarəti altında olan mülki əhalinin sıx yaşadığı məntəqələri ağır artilleriya və iriçaplı silahlardan intensiv atəşə tutub. Ermənistanın hücumları və sonrakı həmlələri nəticəsində qoşunların təmas xətti boyunca 34 şəhər və kənd atəşə məruz alıb, uşaqlar da daxil olmaqla xeyli sayda mülki Azərbaycan əhalisi öldürülüb və yaralanıb. Özəl və ictimai mülkiyyətə ciddi ziyan dəyib. Beləliklə, 314-ü fərdi yaşayış evi olmaqla 353 mülki bina, 3 məktəb, 3 uşaq bağçası, 1 mədəniyyət mərkəzi və digər iaşə obyektləri dağıdılıb və ya ciddi ziyan dəyib. Bundan başqa, 357 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, 30 transformator, eləcə də su anbarları, qaz boruları, yollar və digər mülkiyyətə ciddi ziyan vurulub. 2016-cı il aprelin 18-dək Ermənistan silahlı qüvvələrinin hücumlarının nəticələrinə dair yenilənmiş məlumat əlavə edilir.

Ermənistanın hücum xarakterli əməlləri, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması və yaralanmasına səbəb oldu. Aprelin 10-da Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəflər arasında son gərginliyin ardınca həlak olmuş şəxslərin cəsədlərinin təhvil verilməsi məsələsinə kömək göstərdi. Sonradan həyata keçirilən məhkəmə-tibbi ekspertizası nəticəsində Azərbaycan hərbi qulluqçularının cəsədlərində ölümdən sonra həyata keçirilən çoxsaylı işgəncə əlamətləri qeydə alınıb.

Ermənistan qəsdən həyata keçirdiyi hücum fəaliyyəti ilə 1994-cü ildə əldə edilmiş atəşkəs rejimini sarsıdıb və münaqişənin sülh yolu ilə həlli perspektivlərini zərbə altına qoyub. Aprelin 5-də Rusiya Federasiyasının vasitəçilik səyləri ilə Ermənistan və Azərbaycan arasında atəşkəs barədə razılığa gəlindi. Buna baxmayaraq, Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və qoşunların təmas xətti boyunca yerləşən şəhər və kəndlərini iriçaplı silahlar, minaatanlar, qumbaraatanlar və artilleriyadan atəşə tutmaqla o razılaşmanı pozmaqda davam edir.

Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, o cümlədən Azərbaycan hərbi qulluqçularına qarşı qeyri-insanı davranışı beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, 1954-cü il Hərbi münaqişələr dövründə mədəni mülkiyyətin qorunmasına dair Haaqa Konvensiyası və onun protokolları, Mülki və siyasi hüquqlara dair beynəlxalq pakt, İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq pakt, İşgəncə və digər zorakılıqların, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və yaxud cəzalara qarşı Konvensiya, Bütün növ ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiya, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Ermənistan Respublikasının bir dövlət kimi beynəlxalq səviyyədə qanunsuz əməllərinə görə daşıdığı məsuliyyəti ilə yanaşı, Ermənistan tərəfindən münaqişə dövründə beynəlxalq humanitar və insan haqları hüququnun pozulması beynəlxalq cinayət hüququna görə cinayət kimi tövsif olunur.

Ermənistan tərəfindən Azərbaycana qarşı başladılmış müharibənin səbəb və nəticələrinin hərtərəfli qiymətləndirilməsi nəticəsində tam şəkildə aydın olur ki, münaqişə dövründə Ermənistan tərəfindən törədilmiş cinayətlər pərakəndə və ya təsadüfi hallar olmayaraq, Ermənistanın geniş yayılmış və sistematik xarakter daşıyan siyasətinin və zorakılıq təcrübəsinin tərkib hissəsidir. Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquqi çərçivədə görülən tədbirlər Ermənistanın Azərbaycana qarşı təcavüzü dövründə törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət mühakiməsinə çıxarılmasına xidmət edəcək.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyəti beynəlxalq hüququ kobud şəkildə pozduğuna görə Ermənistanı qınamağa və BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin yerinə yetirilməsini tələb etməyə çağırır. Münaqişə yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyü və suverenliyi əsasında həll oluna bilər. Azərbaycan Respublikası münaqişənin siyasi yolla nizamlanmasına nail olunması və regionda sülh və ədalətin təmin olunması üçün səylərini əsirgəməyəcək.

**2 aprel 2016-cı il tarixindən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının mülki əhalisinə və mülki obyektlərə qarşı silahlı hücumlarının nəticələrinə dair məlumat**

**(18 aprel 2016-cı il tarixinə olan məlumat)**

| S/n | | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Ağdam | Tərtər | Goranboy | Füzuli | Ağcabədi |
| 1. | Mərmi düşmüş yaşayış məntəqələrinin sayı | **34** | **16** | **9** | **5** | **1** | **3** |
| 2. | Düşmüş mərmilərin sayı | **95** | **65** | **15** | **7** | **1** | **7** |
| 3. | Həlak olmuş mülki şəxslər | **4** | **1** | **3** | - | - | - |
| 4. | Yaralanmış mülki şəxslər | **26** | **10** | **8** | **6** | **1** | **1** |
| 5. | Ziyan dəymiş tikililər, o cümlədən | **353** | **98** | **170** | **85** | - | - |
| | - Yaşayış evləri, onlardan | **314** | **72** | **163** | **79** | - | - |
| | tamamilə dağıdılmış evlər | 14 | 5 (Evoğlu -2, Qərvənd -1, Sarıcalı -1, Üçoğlan -1) | - | 9 (Tap Qaraqoyunlu) | - | - |
| | ciddi ziyan dəymiş evlər | 25 | - | 25 (Tərtər şəhəri -3, Şıxarx qəsəbəsi -4, Qapanlı -12, Yuxarı Qaradağlı -3, Azad Qaraqoyunlu -1, Düyərli -1 Qaraağacı -1) | - | - | - |
| | ziyan dəymiş evlər | 275 | 67 | 138 | 70 | - | - |
| | - Qeyri-yaşayış obyektləri | **13** (3 tam orta məktəb, 3 uşaq bağçası, 2 tibb məntəqəsi, 1 mədəniyyət evi, 1 icra nümayəndəliyi binası, 3 iaşə obyekti) | **4** (1 tam orta məktəb (Sarıcalı), 1 uşaq bağçası (Sarıcalı), 1 icra nümayəndəliyi binası (Əfətli), 1 mağaza (Sarıcalı) | **5** (2 tam orta məktəb (Qaraağacı, Qapanlı), 2 tibb məntəqəsi (Yuxarı Qapanlı, Qapanlı), 1 uşaq bağçası (Qazyan) | **4** (1 mədəniyyət evi, 1 uşaq bağçası (Tap Qaraqoyunlu), 2 iaşə obyekti (Zeyvə, Tap Qaraqoyunlu) | - | - |
| | - Yardımçı tikililər | **26** | **22** | **2** | **2** | - | - |
| 6. | Tələf olmuş mal-qara | **290** | **110** | **120** | **60** | - | - |
| 7. | Ziyan dəymiş əkin sahələri, ha | 208 ha taxıl, 28 ha çuğundur | - | 208 ha taxıl (Qaraağacı - 100 ha, Yuxarı Qaradağlı - 50 ha, Şıxarx - 30 ha, | - | - | - |
| | | | | Hüsənli - 28 ha), 28 ha çuğundur (Hüsənli) | | | |
| 8. | Ziyan dəymiş elektrik təsərrüfatı | - 3 kənddə 3 yarımstansiya, - 9 kənddə 30 ədəd transformator, - 14 kənddə 357 elektrik dirəyi, 297 travers, 1084 izolyator, 49 sayğac, 3 km kabel, 41,7 km naqil | 1 yarımstansiya, 2 transformator, 60 elektrik dirəyi (Evoğlu kəndi) | 2 yarımstansiya (İsmayılbəyli və Dəmirçilər), 8 transformator 3 kənddə), 137 elektrik dirəyi (12 kənddə), 137 travers, 288 izolyator,49 sayğac, 20,8 km naqil, 3 km kabel | 20 ədəd transformator, 56 ədəd 10 kv-luq dayaq, 104 ədəd 0,4 kv-luq dayaq, (5 kənddə), 20,9 km naqil, 796 ədəd izolyator, 160 ədəd travers (Tap Qaraqoyunlu) | - | - |
| 9. | Ziyan dəymiş su təsərrüfatı | 8 kənddə 15 ədəd subartezian quyusu, 3 kənddə su çənləri və su xətləri | - | 14 ədəd subartezian quyusu (7 kənddə), Qapanlı və Qaradağlıda su çənləri və su xətləri | 1 ədəd subartezian quyusu, 1650 metr su xətti (Tap Qaraqoyunlu) | - | - |
| 10. | Ziyan dəymiş qaz xətləri | - 5 kənddə qaz xətləri, - 1 kənddə 15 ədəd qaz sayğacı | - | Qapanlı Düyərli, Köçərli, Qaradağlı, Qaynaq kəndlərində qaz xətləri | 15 ədəd qaz sayğacı (Tap Qaraqoyunlu) | - | - |
| 11. | Ziyan dəymiş rabitə təsərrüfatı | - 7 kənddə 9560 metr kabel, 320 metr naqil, 17 ədəd rabitə dirəyi | - | 7780 metr kabel (Yuxarı Qaradağlı, Qaraağacı, Qazyan), 10 ədəd telefon dirəyi | 1100 metr kabel, 7 ədəd telefon dirəyi, (Tap Qaraqoyunlu), 320 metr naqil (Zeyvə), 680 m kabel (Qarqucaq, Hacallı) | - | - |
| 12. | Ziyan dəymiş yol təsərrüfatı | Tap Qaraqoyunlu-Naftalan avtomobil yolunun 4 km hissəsi yararsız hala düşmüşdür | | Qapanlıda 3 km-lik kənd daxili avtomobil yolu hamarlanmışdır. | Tap Qaraqoyunlu-Naftalan avtomobil yolunun 4 km hissəsi yararsız hala düşmüşdür | - | - |